# QAFQAZIN SKİF DÖVRÜ MADDİ-MƏDƏNİYYƏT NÜMUNƏLƏRİ

**H.R.MAHMUDOVA**
***Bakı Dövlət Universiteti***
***hicranmahmudova@mail.ru***

*Qafqaz ərazisində aparılan arxeoloji qazıntılar zamanı burada bir sıra mədəniyyətlərin izləri aydın müşahidə edilmişdir. Yazılı və arxeoloji mənbələr əsasında burada skif mədəniyyətinin xüsusiyyətlərini əks etdirən maddi mədəniyyət nümunələrinin mövcud olması təsdiq olunmuşdur. Skif dövrünə aid olan abidələrdən əldə olunmuş avadanlıqlar içərisində silahlar, bəzəklər, at əsləhəsi üstünlük təşkil edir.*

Bir çox mədəniyyətlərin qovuşduğu və zəngin təbii sərvətlərə malik olan Qafqaz bölgəsi skif dörvü avadanlıqlarının üzə çıxarıldığı qədim mədəni mərkəzlərdən biridir. Təsadüfi və eləcə də sistemli arxeoloji tədqiqiatlar nəticəsində bölgənin ayrı-ayrı ərazilərində skif incəsənətini, hərb işini özündə əks etdirən çoxsaylı maddi-mədəniyyət nümunələri qeydə alınmışdır. Yazılı mənbələr tapıntıların, həqiqətən də, skiflərə aid olduğunu təsdiq edir. Belə ki, Herodot «Tarix»inin iki yerində skiflərin hərəkət istiqamətini göstərərkən, Qafqaz dağlarının sağda qaldığına dair məlumat verir (5, 103-104,190). Onların keçdikləri yol boyunca müxtəlif tipli avadanlıqların qeydə alınması da bu mülahizəni təsdiq edir. Skiflərin hansı keçid vasitəsilə Qafqaza gəlmələri tədqiqatçılar arasında fikir ayrılığı yaratmışdır. E.İ.Krupnov onların Meotida - Kolxida sahilboyu yolundan, Dərbənd keçidi ilə hərbi Gürcüstan yolundan və Mamison keçidi ilə hərbi Osetin yolundan istifadə edərək hərəkət etdiklərini bildirir, S.M.Qaşqay isə skiflərin Kaspi dənizinin ətrafından keçməsini əsassız sayaraq, həmin ərazidə onların hər hansı izlərinin olmamasına istinad edir. Maraqlıdır ki, tədqiqatçı Dağıstanda e.ə. II-I minillikdən e.ə. IV-III əsrlərə qədərki dövrü əhatə edən Zəndək mədəniyyətinin çoxsaylı abidələrinin heç birindən skif tipli abidələrin tapılmamasını əsas gətirsə də, e.ə. VI -V əsrlərə aid Xabadin qəbiristanlığının 2 və 7 saylı qəbirlərindən skif tipli əşyalar tapıldığını da qeyd etmişdir (8, 42-43). Arkas çoxtəbəqəli yaşayış məskənindən əldə olunmuş dəmir at əsləhələri və bəzəkləri Skif-Sibir dünyasının avadanlıqları ilə analogiya təşkil etdiyindən, yerli sənətkarların onların hazırlanma üsulunu skiflərdən mənimsədiyi güman edilir. Amalo dəmir yol stansiyası, Qarabulaqkənd, Tarnair, Qayakənd, Bavtuqay qəsəbəsi və digər ərazilərdən skif tipli ox ucluqları tapılmışdır. Bütün bunlara və qədim mənbələrə əsasən skiflərin hərbi Gürcüstan yolu – Terek çayı, Araqvi çayı və Dəryal keçidi, habelə, hərbi Osetin – Ardon və Rioni sahilləri ilə keçmələri fikrini S.Qaşqay da qəbul etmişdir (8, 47). Skiflərə xas olan tunc və dəmir silahlar, at əsləhəsi və heyvani üslublu digər tapıntılar Şimali Osetiyanın Kumbulta, Qaliat kəndlərindən, Diqor kanalından və Qərbi Gürcüstana gedən yoldan aşkar edildiyindən, Osetin yolunun keçid kimi istifadə olun-

duğunu güman etmək olar. Mərkəzi Gürcüstanın Tsisamuri kəndində, Mtsxet şəhəri yaxınlığında, Beştaşeni ərazisində skiflərə məxsus əşyaların çox sayda qeydə alınması Dəryal keçidinin də hərəkət yollarından biri olduğunu göstərir. Ancaq sözsüz ki, skiflər bu bölgəyə əsasən, Dərbənd keçidi vasitəsilə gəlmişlər. Skiflərin Xəzər yolu ilə keçimələrini antik müəlliflər və arxeoloji materiallar dəfələrlə təsdiq etmişdir. Mahaçqala yaxınlığında tapılmış rombvari formalı, iki pərli, uzun oymaqlı ox ucluğu e.ə. VIII-VII əsrlərə, başqa sözlə, skiflərin yürüşü vaxtına aid edilir (9, 57). Cənubi Qafqazdan tapılmış ox ucluqları oval və ya üçkünc başlıqlı, üçpərli olmaqla skif tipini təkrarlamışdı (11, 65, 71). Həmin dövrdə tənəzzül edən Şah-Səngər (e.ə. IX-VII əsrlər) şəhərinin skif dövrünə aid mədəni təbəqəsindən qala divarlarının, yaşayış evlərinin qalıqları, müxtəlif məişət-təsərrüfat avadanlıqları, o cümlədən, silahlar tapılmışdır (9, 57). Bölgənin arxeoloji tədqiqatları nəticəsində üzə çıxarılan maddi mədəniyyət nümunələri skiflərin burada müvəqqəti məskunlaşmasını göstərir.

Baş Qafqaz dağlarından cənuba doğru qeydə alınmış abidələr də skif tipli silah və at əsləhələri ilə zəngindir. Belə ki, Cənubi Osetiyanın Tli kəndi yaxınlığında yerləşən Koban qəbrində, Abxaziyanın Kulanurxva və Kolxida kəndlərindəki qəbirlərdə kəpənəkvari ayrıclı dəmir akinak, tuncdan hazırlanmış 2 və 3 pərli ox ucluğu, dəmir təbərzin, balta, üzəngivari başlığa malik yüyən, sümük və dəmirdən hazırlanmış üç ilgəkli kəmərlər tapılmışdır (11, 89). Bir sözlə, Qara dənizin şimal sahilinin skif tipli qəbirləri üçün xarakterik maddi mədəniyyət nümunələri analoji olaraq, Qafqaz ərazisində qeydə alınmışdır. Heyvani üslublu avadanlıqlar Karmir-Blurdan və Samtavr qəbiristanlığı ərazisindən, eyni zamanda Ziviyədə skif çarına aid edilən xəzinədən də aşkar edilmişdir (12, 23). Dəfinədəki əşyalar əsasən, e.ə. IX-VII əsrlərə aid edilsə də, qızıldan hazırlanmış skif üslublu məmulatları Kuban boyunun və Qara dəniz sahilinin skif kurqanları ilə müqayisə edən tədqiqatçılar, onların e.ə.VII əsrin sonu - VI əsrin əvvəllərinə aid olduğunu bildirirlər.

Cənubi Qafqazda «skif elementli» abidələri xarakterizə edən Poqrebova M.N. onlardan 11-nin Azərbaycan, 36-nın Gürcüstan (Abxaziya və Osetiya torpaqları ilə birlikdə), 2-sinin Qərbi Azərbaycan ərazisində olduğunu göstərmişdir (11, 21-37). Tədqiqatçı Azərbaycanda əsasən ox ucluqlarının qeydə alındığını, habelə XIX əsrdə V.Belkin Qalkənd qazıntıları zamanı dəmir akinak tapıldığını da qeyd etmişdir (11, 22). Qeyd edək ki, müdafiə əsləhəsi olaraq zireh, dəbilqə, ayaq sipəri, döyüş kəməri və qalxan skif hərb işində əvəzolunmaz hesab olunurdu. E.ə. VI-III əsrlərə aid Şimali Qafqaz, Volqaboyu və Orta Asiya əraziləri üçün tapıntıların sayını müqayisə edən E.V.Çernenko, müdafiə əsləhəsinin Şimali Qara dəniz sahillərində daha çox yayıldığını göstərməyə çalışırdı. Tədqiqatçı, ümumiləşdirmələr apararaq e.ə.VI əsrə aid Şimali Qara dəniz sahillərindən 18, Şimali Qafqazdan 5, analoji olaraq, həmin ərazilərdən e.ə. V əsrə aid 39 və 7; IV-III əsrlərə aid 59; Volqaboyundan 5, Orta Asiyadan 2 belə zirehli geyim tapıldığını bildirmişdir (14, 36). Çox güman ki, müdafiə xarakterli silahların qeydə alınmasını əsas gətirməklə, tədqiqatçılar, skiflərin həmin ərazidə məskunlaşması və xarici hücumdan müdafiə olunduqlarını göstərməyə çalışmışlar.

Şimali Qafqazda Çervlen stansiyasının ətrafında təsadüfi torpaq işləri zamanı skif hərbçisinə bənzər gildən hazırlanmış fiqurlar tapılmışdır. Başında şiş uclu dəbilqəsi olan kişi heykəlciyi ümumi geyim elementlərinə əsasən skif hesab olunmuşdur. 1962-ci ildə yerli kənd müəllimi P.A.Popovun Yalxoy-Moxk kəndində aşkar etdiyi daş qutu qəbirdə e.ə. VI-IV əsrlərə aid at əsləhəsi və ox ucluğu ilə yanaşı daşdan yo-

nulmuş insan fiquru da olmuşdur. Oxşar tapıntılar Beti-Moxk, Zamni-Yurt, Mesketi, Qanaytı kəndlərindən əldə edilmişdir(10, 299).Hazırlanma üslubuna görə məşhur Kül-Oba təsvirinə oxşar olan bu heykəlcik Azərbaycandan tapılmış bir fiqurla da analogiya təşkil edir. Ölkəmizin ərazisində XX əsrin 90-cı illərində aparılan arxeoloji qazıntılar zamanı müxtəlif tipli heykəlciklər və ya daş bütlər qeydə alınmışdır. Ağsunun Gəgəli kəndində Nərgizava adlı antik və ilk orta əsrlər dövrünə aid qədim yaşayış yerinə məxsus nekropolun bir hissəsi bu dövrdə üzə çıxarılmışdır. Nekropolun torpaq, daş qutu, küp və təknə tipli qəbir abidələrindən saxsı və metal məmulatlarla yanaşı. daşdan hazırlanan kiçik heykəlcik əldə edilmişdir. Əhəngdaşından hazırlanmış boz rəngli heykəlin baş hissəsi qırılmış, sağ əli ürəyi, sol əli isə kəmər yerində olmuşdur. Azərbaycanın Xınıslı, Çıraqlı, Mollaisaqlı və başqa yaşayış yerlərindən, bir sıra ibadətgah və qəbiristanlıqlardan tapılan belə heykəlciklərin yayılma arealı, skif dövründən etibarən, Şərqi Avropanın çöl hissəsini və Cənubi Qafqazı da əhatə etmişdir. Azərbaycan Abşeron, Şirvan, Mil-Qarabağ, Muğan, Şərur və digər düzləri, geniş qış otlaqları, su ehtiyatları və isti iqlimi ilə qədim köçəri tayfaların, o cümlədən skiflərin buraya gəlməsi üçün əlverişli mühit olmuşdur. Bu fikri arxeoloji qazıntılar da təsdiq edir. 1959-1960-cı illərdə Mil düzündə 0,5m hündürlüyündə Kiçik kurqan açılmışdır. Quyusunun dərinliyi 3m-dən artıq, diametri 15m olan olan qəbirdə bükülü vəziyyətdə, başı qərbə yönəlmiş kişi skeleti ilə yanaşı yerli istehsala aid qara rəngli qab, at kəlləsi, daş və sümük muncuqlar qeydə alınmışdı. At əsləhəsi içərisində jabotin tipli tunc yəhər, 5 ədəd tunc lövhəcik, üzərində heyvan fiquru çəkilmiş koban tipli at alınlığının aşağı hissəsinin bir parçası da vardı. Tədqiqatçılar bu tapıntını e.ə.VII əsrin II yarısına aid edirlər. Skiflərin Azərbaycanda olduğunu təsdiq edən Q.İsmayılzadə belə hesab edir ki, skiflərin atlı ordası adətən, qışı Azərbaycanın çöl vilayətlərində, yay mövsümünü cənubda, əsas etibarilə Aladağ və Qaradağda-Urmiyaətrafı rayonlarda keçirirdilər (7, 98, 99). Odur ki, Kiçik kurqana yaxın dövrə və mədəni mənsubiyyətə malik qəbir kompleksləri Azərbaycanın digər rayonlarında: Yuxarı Talış və Qarabağda, Muğan və Şirvan düzlərində, Mingəçevirdə və başqa ərazilərdə qeydə alınmışdır (7, 99).

Şəmkir nekropolunda 1978-ci ilin noyabrından 1983-cü ilin iyulunadək, 5 ha sahədə aparılan arxeoloji qazıntılar nəticəsində 44 torpaq qəbir açılmışdır. Buradakı 13 və 25 saylı qəbirlərdə insanın atla bərabər dəfni, at əsləhə və bəzəkləri xüsusilə diqqəti cəlb edir. Tədqiqatçılar tərəfindən buradan skif tipli ox ucluqları və sırğalar tapılmışdır. Q.Aslanov e.ə.VII-IV əsrlərə aid edilən abidədə qeydə alınan dəfn mərasiminin, anoloji olaraq, Avrasiya çöllərinin skif tayfalarına məxsus qəbirlərində də müşahidə olunduğunu bildirmişdir (3, 4-8). Qeyd etmək lazımdır ki, Mingəçevir ərazisində bir neçə kurqan skif dövrünə aid edilir. Buradakı qəbirlərdə bükülü vəziyyətdə dəfn olunmuş insan sümükləri ilə yanaşı çoxlu sayda məişət və təsərrüfat xarakterli avadanlıqlar üzə çıxarılmışdır (12, 71). Ümumilikdə, qəbirlərdən 30-a qədər at skeleti, müxtəlif əsləhələr qeydə alınmış və müqayisələr nəticəsində onlar e.ə.VII əsrə aid edilmişdir. Tuncdan hazırlanmış bir gözlü yüyən ağızlığı skif dövründə geniş yayılmışdır. Sır-Dəryanın e.ə. VI-V əsrlərə, Şimali Qafqazın e.ə.VIII-VII əsrlərə, Altay, Tuva, Qazaxıstan, İran və Yaxın Şərqin e.ə.V əsrə aid skif tipli qəbirlərindən çoxlu sayda belə tapıntılar qeydə alınmışdı. Şimali Qafqazda üzəngili yəhərlər Kelermes kurqanlarında, Kamenşina, Kiyevşina ərazilərində, Ananyin mədəniyyətinin yayıldığı rayonlarda məlum olub, Altay və Orta Sibir abidələrinin nümunələri ilə anologiya

təşkil edir. Maraqlıdır ki, e.ə. VI əsrdən etibarən, Qafqaz yəhər və yüyənləri dəmirdən hazırlansa da, Sibirdə dəmir əsləhələr qeydə alınmamışdı.

Mingəçevir kurqanları xronoloji cəhətdən e.ə.XI-IX, e.ə.IX-VIII, e.ə.VII-VI əsrləri əhatə edir. Burada ölülər kürəyi üstə, düz uzadılmış vəziyyətdə, başları şimal-qərb istiqamətdə dəfn olunmuşdur. Kurqanlardan 3 pərli, tıxaclı və 2 pərli formalı ox ucluqları qeydə alınmış və onların ümumi sayı 40-a çatmışdır. Metalloqrafik tədqiqatlar tunc ox ucluqlarının tökmə və ya döymə üsulu ilə hazırlandığını göstərir. Mingəçevirin skif qəbirlərindən tapılmış qədim məhmizli ox ucluqlarına əsasən bu tipli tapıntıların formalaşması e.ə. VII əsrə aid edilir (1, 16). Öz xarici görünüşünə görə Mingəçevirin ox ucluqları Dneprdəki Aleksandropol, Poltava vilayətindəki Aksyutinsk, Krasnoyarsk diyarındakı Karaqodeuaşx, həmçinin, məşhur Kelermes və Karxemış kurqanlarından tapılmış ucluqlarla oxşar hesab olunur (6, 85). Qeyd edək ki, skif tipli əşyaların, xüsusən də, silahların Dnepr ətrafı emalatxanalarda hazırlanaraq, yalnız hərbi yürüşlər zamanı digər ərazilərə gətirilməsi barədə mövcud fikirlər əsassızdır. Əldə olunmuş maddi mədəniyyət nümunələrinə əsasən, ən böyük emalatxananın da əslində belə bir tələbatı ödəyə bilməsi şübhə doğurur. Eyni zamanda, konkret ərazilərdə bu tip silahın uzun müddət ərzində (təqribən e. ə. VII əsrdən e.ə. IV əsrə qədər) istifadəsi və ardıcıl olaraq qeydə alınması onun yerli istehsala məxsus məmulat olmasını təsdiqləyə bilər. Onların formalarındakı fərqlilik də bu barədə fikir yürütməyə imkan yaradır. Mingəçevirin tunc ox ucluqları qanadlarının formasına görə 5 qrupa bölünür: 1) sulcuqlu gödək, qanadları açıq olmayan, 2) sulcuqlu gödək, qanadları açıq, 3) sulcuqlu uzun, qanadları açıq olmayan, 4) sulcuqlu uzun, qanadları açıq, 5) sulcuqlu uzun, qanadları açıq, enli. Bütövlükdə isə skif tipli ox ucluqları əsasən 3 formada qeydə alınmışdır: yastı məhmizli, üç tilli məhmizsiz və sümükdən hazırlananlar(1, 20). Mingəçevirin skif tipli silahları içərisində xəncərlər də xüsusi yer tutur. Sulcuqlu xəncərlər 3 formada: deşiksiz, tək deşikli, 2 və ya 3 deşikli olurdu (1, 12). İ.H.Nərimanov və İ.A.Babayevin Keçilidə (Şəmkir) apardıqları arxeoloji qazıntılar içərisində son tunc-erkən dəmir dövrünə aid edilən qəbirlərdən 2 ədəd tuncdan hazırlanmış, yarpaqşəkilli iki pərli ox ucluğu tapılmışdı. Boru formalı saplağında geriyə qatlanan bir çıxıntısı olan Keçilinin bu ox ucluqları dövr etibarilə e.ə. VII-V əsrlər üçün səciyyəvi olub, arxaik tipli hesab edilir (2, 61). Mingəçevirin skif mənşəli tunc güzgüləri qulplu olub, əsasən, qulpları heyvan başlığı formada hazırlanırdı. Qəbirlərdə məişət əşyaları və əmək alətlərinə nisbətən, silah və bəzəklər çoxlu sayda qeydə alınmışdır. S.M.Qazıyev Mingəçevirin e.ə. VII-V əsrlərə aid qəbirlərində ox ucluğu və zoomorf fiqurlu qablar – qoyun formalı 2 qulplu; boz rəngli, qulpu və qapağı quş başı formasında düzəldilən qablar olduğunu bildirmişdir (1,24). Həm qəbir abidələrində, həm də yaşayış yerlərində maral, at, keçi və müxtəlif quşların taxtadan, metaldan hazırlanmış fiqurlarına rast gəlinmişdir.

Göründüyü kimi, Qafqazın bir sıra bölgələrində skif mədəniyyətini xarakterizə edə biləcək nümunələr aşkar olunmuş və tədqiqatçılar tərəfindən onların xarakteri müəyyən qədər araşdırılmışdır. Bütövlükdə Qafqaz əlverişli coğrafi – siyasi mövqeyi ilə daim regionda siyasi hadisələrin aktiv cərəyan etdiyi mərkəz olmuş və aparıcı mövqeyi ilə seçilmişdir. Skif dövrü arxeoloji materiallarının tapılması da hələ qədim dövrlərdən etibarən buranın tranzit siyasi-mədəni-iqtisadi əhəmiyyətinin göstəricilərindən ola bilər.

## ƏDƏBİYYAT

1.Qazıyev S.M. Mingəçevirdən tapılmış bəzi silahlardan. Azərbaycanın Maddi Mədəniyyəti. 10 cilddə. II c. Bakı: Elm, 1951, s. 4-30

2.Nərimanov İ.H., Babayev İ.A. Keçilidə arxeoloji tapıntılar. Azərbaycanın Maddi Mədəniyyəti. 10 cilddə. X c. Bakı: Elm, 1987, s. 57-68.

3.Асланов Г.Г. Шамхорский могильник. Баку: Элм, 1986, 112с.

4.Виноградов В.Б. Фигурки «скифов» из Чечено-Ингушетии // журн. Советская Археология, 1966, №2, с.298-301.

5.Геродот. История в 9-ти книгах. пер. Г.А.Стратановского. Ленинград: Наука, 1972, 600 с.

6.Ионе Г.И. Мингечаурские разновидности наконечников стрел «скифского типа» // Материальная Культура Азербайджана. В 10-ти т. Т. III. 1953, с. 81-97.

7.Исмаилзаде Г.С. Территория Азербайджана в предистории великого шелкового пути / журн. Диалог цивилизаций, 2003, №2, с. 98-99.

8.Кашкай С.М. О скифских походах через Кавказ на Ближный Восток / Akademik İ.Əliyevin 80 illik yubileyinə həsr olunmuş Elmi konfransın materialları. Bakı: Elm, 2004, s. 41-52.

9.Котович В.Г. Археологические данные к древней истории Прикаспийского пути // Проблемы Археологии. вып.2: Л.: Наука, 1978, с. 54-61.

10.Нариманов И. Скифы, тюрки и Азербайджан / Международная научная конференция Археология и этнография Кавказа. Баку: Элм, 2000, с.68-69.

11.Погребова М.Н., Есаян С.А. Скифские памятники Закавказья. М.:Наука, 1985, 152 с.

12. Тереножкин А.И. Скифская культура / Проблемы Скифской Археологии, М.: Наука, 1971, с.15-24.

13. Халилов Дж.А. Археологические находки «скифского облика» и вопрос о Скифском царстве на территории Азербайджана / Проблемы Скифской Археологии. М.: Наука, 1971, с. 183-187.

14.Черненко Е.В. О времени и месте появления тяжелой конницы в степях Евразии / Проблемы Скифской Археологии, М.: Наука, 1971, с.35-38.


## МАТЕРИАЛЬНАЯ КУЛЬТУРА КАВКАЗА В СКИФСКОЕ ВРЕМЯ


### Х.Р.МАХМУДОВА


### РЕЗЮМЕ


Во время археологических раскопок на территории Кавказа обнаружено следы некоторых культур, относящиеся различным народам. На основе письменных и археологических источников доказано, что здесь существовало материально - культурные ценности отражающие особенности скифской культуры. Среди находок из памятников скифского времени особое место занимают наконечники стрел, кинжалы, конские сбруи и украшения.


## MATERIAL CULTURE OF THE CAUCASUS DURİNG THE SCYTHIAN PERIOD


### H.R.MAHMUDOVA


### SUMMARY


Different nations have rich historical tracks in the Caucasian territory. The discovered material cultural values prove the necessary political and geographical situation of the Caucasus during the Scythian period. Articles have been devoted to the archieological investigation of the Scythian period in the Caucasus. The findings of the Scythian monuments mostly consist of arrow tips, horse saddles, stirrups, bridles, daggers, and different ornaments.